BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaCeram®-15

(köhnə adı SikaTile®-15)

C1T sinfi, incə təbəqə üsulu ilə tətbiq edilən plitə yapışdırıcısı

## TƏSVİR

SikaCeram®-15, keramik plitə və kafellərin yapışdırılması üçün su əlavə edilməklə istifadəyə hazır vəziyyətə gətirilən, sement əsaslı yapışdırıcıdır. Keramika və kafelləri yapışdırmaq üçün 5 mm-ə qədər qalınlıqda tətbiq edilir.

## İSTİFADƏ YERLƏRİ

- SikaCeram®-15, kafel və keramik plitələrin 5 mm qalınlığa qədər incə təbəqə üsulu ilə yapışdırılması üçün istifadə edilir. Mükəmməl yapışmasına görə, ənənəvi yapışdırıcıların plitə növünə, səthə və ya xüsusi yerinə görə uyğun olmadığı hallarda istifadə edilə bilər.
- Kafel, keramika, təbii və süni daş plitələr
- Hər növ yüksək absorbsiyaya malik keramik plitələr
- Beton, suvaq və bənzəri mineral hopduruculu səthlərdə
- Kərpic, qaz beton blokları, məsaməli beton blokların yapışdırılmasında (AAC)
- Daxildə divar və döşəmələrdə, xarici məkan döşəmələrində istifadə olunur.

## ÜSTÜNLÜKLƏRİ

- EN 12004 standardına görə C1T sinfi yapışdırıcı
- C1 Sinifi - Sement tərkibli yapışdırıcı
- T sinifi - Tiksotropik tutarlılıq
- Bir çox səthə yapışma (Beton, suvaq, kərpic, daş ...)
- Asan istifadəli tiksotropik konsistensiya

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

- EN 12004:2017 standardına görə C1T sinfi.
- AZS Uyğunluq Sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Sement, polimer və su tutucu əlavələr |
| **Qablaşdırma** | 25 kq torba |
| **Görünüş və rəng** | Ağ / boz rəngli toz |
| **Saxlama Müddəti** | Doğru anbarlama şərtlərində saxladıqda istehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Açılmamış, orijinal qablaşdırmada, sərin, quru və bağlı yerlərdə, +5°C-dən, +35°C-ə qədər temperatur aralığında saxlanılmalıdır. |
| **Sıxlığı** | Təzə qarışımın sıxlığı: ~ 1.5 kg/l (+20° C-də) |
| **Maksimum dənəcik ölçüsü** | $D_{max}$: 0.5 mm |

## TEXNİKİ MƏLUMATLAR

| | | | |
|---|---|---|---|
| **Dartma yapışma gücü** | Standard Tətbiqdə | ≥ 0.5 N/mm² | (EN 12004) |
| | Suda saxladıqdan sonra | ≥ 0.5 N/mm² | |
| | İsitilik yaşlandırması sonrasında | ≥ 0.5 N/mm² | |
| **Sürüşmə müqaviməti** | ≤ 0.5 mm | | (EN 12004) |

## TƏTBİQ MƏLUMATI

**Qarışdırma nisbəti**

25 kq torba üçün 6,50 – 7,00 litr su istifadə edilməlidir. Su / Toz nisbəti kütlə əsasında 0,26 – 0,28 olmalıdır.

**Sərfiyyat**

İstifadə miqdarı, səthin nahamarlığından, səviyyəsindən, plitə ölçülərindən, tətbiq üsulundan (incə təbəqə vəya səthə və plitə arxasına çəkmə ) asılıdır : Misal olaraq, 1 m2 sahə üçün lazım olan toz kq- ilə :

| Plitə Ölçüləri | Dişli Mala ölçüsü | İstifadə Miqdarı |
|---|---|---|
| Kiçik plitələr | 6 mm | ~ 2- 3 kq/m2 |
| Adi plitələr (20x20 - 40x40 cm) | 8 mm | ~ 3- 4 kq/m2 |
| Böyük ölçülü plitələr, səthə və plitəyə çəkməklə | 10 mm | ~ 4- 7 kq/m2 |

| | |
|---|---|
| **Təbəqə qalınlığı** | Min. 3 mm / Maks. 5 mm |
| **Ətraf mühit temperaturu** | Min: +5 °C / Max: +35 °C |
| **Səthin temperaturu** | Min: +5 °C / Max: +35 °C |
| **İstifadə müddəti** | ~ 120 dəqiqə ( +23 °C-də, 50% NR) |
| **Açıq gözləmə müddəti** | ≥ 0.5 N/mm², 20 dəqiqə ərzində |

**İstismara hazır olma zamanı**

( +20°C-də)

| | |
|---|---|
| Dərz doldurma tətbiqi | Min. 24 saat |
| Yüngül piyada keçidi | Min. 24 saat |
| Tam İstifadəyə hazır olma | Min. 7 gün |

## SİSTEM MƏLUMATI

**Sistem strukturu**

| Səth | Astar |
|---|---|
| Gips suvağı və ya anhidrid şap | SikaWall® 12 binder |
| Mövcüd plitə üzəri və ya hopdurucu olmayan səthlər | SikaCeram® Primer 303 |

Astar məhsulunun istifadə miqdarı üşün müvafiq Məhsulun Məlumat Vərəqinə baxın.

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Beton 28 günlük müqavimətini almış olmalıdır.
- Tövsiyə olunan qarışdırma suyu miqdarını aşmayın.
- Yalnız sağlam, hazırlanmış səthlərə tətbiq edin.
- Maksimum təbəqə qalınlığını aşmayın.
- Təzə tətbiq olunan materialı şaxtadan və yağışdan və s. qoruyun.
- Plitələri əvvəlcədən nəmləndirmək lazım deyil.
- Açıq gözləmə müddəti uzatmaq üçün tətbiq olunan yapışdırıcını nəmləndirməyə çalışmayın, çünki bu, yapışma müqavimətini azaldır.
- Anhidrit döşəmə şaplarına tətbiq etməyin.
- Sulu və ya aşırı nəmli səthlərə tətbiq etməyin, çünki bu qurutma müddətini gecikdirəcəkdir.
- Yapışdırıcı tətbiqində (6-10mm-lik) şovların olmasına, alt təbəqədə olan hərəkət dərzinin üst təbəqəyə daşınmasına, üfiqi və şaquli birləşmələrdə, künclərdə, sütun ətrafi kimi struktur elementləri və tətbiq sahəsi perimetr boyunca şovların buraxılmasına diqqət edilməlidir.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### SƏTHİN KEYFİYYƏTİ/ÖN HAZIRLIQ

Səth, struktur olaraq sağlam, təmiz, kirdən, yağdan və digər çirkləndiricilərdən, zəif tutunmuş hissəciklərdən təmiz olmalıdır. Zəif beton və/yaxud səth qalığı mexaniki üsullarla çıxarılmalıdır. Kiçik boşluqlar və nahamarlıqlar SikaCeram®-15 istifadə edərək düzəldilə bilər. Bununla belə, səthdıki daha böyük təmir işləri, dəliklərin/boşluqların doldurulması SikaTop®, Sika® MonoTop və ya Sika® Rep çeşidindən müvafiq məhsullar və ya Sika® Latex ilə təkmilləşdirilmiş, sahədə hazırlanan qarışımdan istifadə etməklə həyata keçirilməlidir.
Təmir işlərindən sonra, plitələri yerləşdirməzdən əvvəl təmir materiallarının (24 - 48 saat ) quruma müddəti gözlənilməlidir. Yapışdırıcı tətbiqindən əvvəl toz, sərbəst və kövrək qalıqlar səthdən plastik telli süpürgə, fırça və/və ya vakuumla təmizlənməlidir. Temperaturun yüksək və/və ya nisbi rütubətin aşağı, səthin çox məsaməli və hopduruculuğun yüksək olduğu şərtlərdə səthin əvvəlcədən nəmləndirilməsi tövsiyyə olunur. Nəmləndirilmiş səthdə qalıq su olmamalıdır. Səviyyədəki fərqlilik, düz kənar profil ilə ölçüldüyündə 2metr-də 5 mm-dən az olmalıdır. Səviyyə kifayət qədər yaxşı deyilsə, səth SikaLatex®, Sika® MonoTop və ya SikaFloor® tipli materiallarla düzəldilməlidir.

### QARIŞDIRMA

SikaCeram®-15, aşağı sürətli elektrikli əl qarışdırıcısı ilə qarışdırılmalıdır. Beton qarışdırıcı avadanlığı uyğun deyildir. Tövsiyyə olunan miqdarda suyu təmiz qaba tökün. Məhsulu yavaş-yavaş əlavə edərək aşağı sürətlə qarışdırmağa başlayın. Eynicinsli, topaqsız qarışım əldə etmək üçün aşağı sürətli elektrikli əl mikseri (< 500 rpm) ilə 3-5 dəqiqə qarışdırmağa davam edin. Qarışdırma bitdikdən sonra 5 dəqiqə gözləyin, yenidən 15-20 saniyə qarışdırıb istifadəyə hazır edin.

### TƏTBİQ

SikaCeram®-15, dişli mala vasitəsi ilə səthə incə təbəqə çəkilərək tətbiq edilir. Yapışdırma tətbiqinə uyğun mala ölçüsü seçilməlidir. Misal olaraq:

- 5 x 5 sm-ə qədər olan mozaikalar üçün 3 mm-lik dişli mala istifadə edin.
- Normal keramik plitələr üçün (< 200 x 200mm), 6 mm dişli mala istifadə edin.
- Böyük plitələr üçün 10 mm dişli mala istifadə edin .

SikaCeram®-15, 300 x 300-dən böyük plitələr və ya digər (plitələrin cilalanması, ağır yüklərə məruz qalması kimi ) tələblər üçün səthə və plitənin yapışan üzünə çəkməklə tətbiq edilməlidir. Tələb olunan qalınlıq üçün lazımı miqdarda yapışdırıcı (~1$m^2$)ölçüsündə sahəyə çəkilməli, dişli mala vasitəsi ilə qalınlıq tənzimlənməlidir. Keramik plitələri daranmış yapışdırıcı təbəqəsi üzərinə qoyun, daraq izlərinə perpendikulyar olaraq plitəni irəli-geri hərəkət etdirin. Yapışdırıcının plitə altında tam yayıldığından və daraq izlərinin itdiyindən əmin olun. Normal temperatur və rütubət şəraitində açıq gözləmə müddəti təxminən 20 dəqiqədir. Ətraf mühit tempraturunun yüksək olduğu zamanlarda Açıq Gözləmə Müddəti daha qısa olacaqdır. Bu kimi şərtlərdə plitəni yerləşdirməzdən əvvəl barmaq testi edilməli, yapışdırıcı qatı üzərində film təbəqəsi yoxlanılmalı, dişli mala səthdə təkrar gəzdirilməli və ya yapışdırıcı təbəqəsi yenisi ilə əvəz olunmalıdır.

### AVADANLIQ TƏMİZLİYİ

İstifadədən dərhal sonra bütün alətləri və tətbiq avadanlıqlarını su ilə təmizləyin. Sərtləşdirilmiş / bərkimiş material yalnız mexaniki şəkildə çıxarıla bilər.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz

məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12